13 və 14 sentyabr 2013-cü il tarixində Yaponiya hökümətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində aşağıdakı imzalanma və açılış mərasimləri keçirilmişdi.

**1. "Masallının Güllütəpə kəndində tibb məntəqəsnin tikinitisi" layihəsi üzrə qrant müqaviləsinin imzalanma mərasimi**

Layihənin əsas məramı Masallının Güllütəpə və qonşu beş kənd sakinlərinin tibbi xidmətdən istifadəsi üçün lazımi şərait yaratmaqdır. Layihədən faydalanacaq əhalinin təxmini sayı 6 800 nəfərdən çoxdur. Bu layihə üçün Yaponiya hökumətinin ayırdığı qrant yardımının ümumi məbləği **110,957 ABŞ dolları** təşkil edir**.**

İmzalanma



Müqavilənin bağlanması



**2. "Lerikin mərkəzi xəstəxanasının pediatriya şöbəsinin təmiri" layihəsinin başa çatması münasibəti ilə açılış mərasimi**

Layihənin əsas məqsədi lerikin özündə və kəndlərində yaşayan müalicəyə ehtiyacı olan uşaqlar üçün tibbi xidmətin səviyyəsini yaxşılaşdırmaqdır. Layihədən faydalanacaq uşaqların sayı 22000 nəfərdir. Layihənin ümumi məbləği **123,246 ABŞ** dolları təşkil edir.

Səfirin nitqi

Lentin kəsilməsi





Yenilənmiş Lerik Uşaq Xəstəxanası







